# شهر رجب والأشهر الحُرم

Azərbaycan dili — اللغة الأذرية

# Rəcəb ayı və haram aylar






## Şeyx Heysəm Sərhan

"Sünnə" tədris mərkəzinin rəhbəri



Tərcümə edən: İlqar Eyvazoğlu

ALSARHAAN.COM MAHADSUNNAH.COM

# Haram aylar hansılardır?
# İslamda onların yeri nədir?

Allah ayları yaratdı, onlardan istədiyini xüsusiyyətləri, fəzilətləri və əməlləri ilə fərqləndirdi. Bunlardan dördünü seçib əzəmətləşdirdi. Bunlar Rəcəb, Zul-Qadə, Zul-Hiccə və Məhərrəm aylarıdır.

İbn Abbas (Allah ondan razı olsun) buyurub:
"(Allah) Bu aylarda günahı da əzəmətli etdi, saleh əməl və əcri də əzəmətli etdi" (Təfsir Tabəri 14/238)

Rəcəb ayı da, belə aylardan biridir. Müsəlman bu aylarda haramlara düşməkdən çəkinməli və bu ayda çoxlu yaxşı işlər görməlidir.

**Bu ayda çəkinməsi vacib olan bir neçə məsələ var. Bunlardan:**

- Bir çox insanın bir namazı o ayda xüsusiləşdirmək kimi buraxdığı səhvlərdir. Bu da, rağaib namazı adlanır.

İmam Nəvəvi (Allah ona rəhmət eləsin) buyurub:
"Bu ciddi şəkildə qınalınan çirkin bir bidətdir" (Məcmu Şərhul Muhəzzəb - 4/56)

- Bu bidətlərdən biri də bu ayın iyirmi yeddinci gecəsi İsra və merac gecəsi olduğunu iddia edərək bu gecəni şənliyə həsr etməkdir.

Hafiz İbn Həcər (Allah ona rəhmət eləsin) demişdir:
“O ayda oruc tutmaq üçün nə xüsusi bir gün, nə də müəyyən bir gecədə ibadət etmək barədə etibar olunan səhih hədis rəvayət edilməmişdir”. (Təbyiinul Ucəb /11)

Deməli, müsəlman Allaha, dinə müxalif əməllərdən və bidətlərdən uzaq duraraq, onun qoyduğu şəriətə uyğun olaraq ibadət etməlidir .

Uca Allah buyurur:

قال تعالى: ﴿وَأَنَّ هَٰذَا صِرَٰطِي مُسۡتَقِيمٗا فَٱتَّبِعُوهُۖ وَلَا تَتَّبِعُواْ ٱلسُّبُلَ فَتَفَرَّقَ بِكُمۡ عَن سَبِيلِهِۦۚ ذَٰلِكُمۡ وَصَّىٰكُم بِهِۦ لَعَلَّكُمۡ تَتَّقُونَ ١٥٣﴾ [الأَنۡعَام : ١٥٣]

**“Bu, Mənim doğru yolumdur, onu tutub gedin. Başqa yollara uymayın. Çünki, (o yollar )sizi Allahın yolundan uzaqlaşdırar. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə (pis əməllərdən) çəkinəsiniz.”** (Ənam surəsi, 153-cü ayə)